Firuzə Məmmədli – 85

# Milli poeziyamızın Firuzəsi

**Adının mənası çox nadir və qiymətli daşı ehtiva edən Firuzə Məmmədli Azərbaycan poeziyasının nadir istedad sahibi olan qadın təmsilçisidir. Qədim dövrlərdən zərgərlikdə istifadə edilən firuzə bərəkət və var-dövlət rəmzi hesab edilir. Bu adı daşıyan xanım şairimiz də elə öz poetik nəfəsi ilə milli ədəbiyyatımızı zənginləşdirir.**

Firuzə Məmmədli 1940-cı il yanvarın 10-da Xaçmaz rayonunun Canaxır kəndində dünyaya göz açıb. Orta məktəbi gümüş medalla bitirəndən sonra Quba tibb məktəbində oxuyub. Amma ədəbiyyata sevgisi üstün gəlib və o, Bakıda APİ-nin (indiki ADPU) filologiya fakültəsinə daxil olaraq ali təhsilini fərqləmə diplomu ilə başa vurub. Bir müddət institutun Naxçıvan filialında, eyni zamanda oradakı pedaqoji məktəbdə çalışıb. 1970-ci ildə APİ-nin Azərbaycan dilçiliyi kafedrasına keçirilib. Yurdumuzun şimal, şərq və qərb guşələrində görüb-götürdüklərini, hiss və həyəcan yaşantılarını qəlbinin süzgəcindən keçirərək gözəl poetik nümunələrə çevirib. Şair olmaqla bərabər, tərcüməçi, ədəbiyyatşünas, publisist kimi tanınıb.

İlk dəfə onun şeirlərini, təxminən, 40–45 il əvvəl "Azərbaycan" jurnalından oxumuş və xeyli təsirlənmişdim. "Bahar ritmləri"ndə yaz duyğularını bir rəssam kimi sözlə çox gözəl çəkmişdi:

**Elə cilvələnir aşığın təbi,**
**Əli üzüləmmir saz ətəyindən.**
**Açır boxçasını axır ki düzlər,**
**Bənövşə tökülür yaz ətəyindən.**

Artıq yarım əsrdən çoxdur ki, sərasər paytaxtda yaşayıb-yaradan Firuzə Məmmədli həm zərif qadın duyğularının, həm də əsl vətəndaş mövqeyinin tərcümanına çevrilib. İndiyədək 37 kitabı çap olunub. "Gümüşü damla" ilə "Ömrün axarı"nı tutub, "Yetkinliy"ini "Savaş fəsli" sayıb "Bir



qarış ucalıq"la öyünüb, qalib ədası ilə "Nə yaxşı yaxamda söz medalım var", – deyib və görüb ki, elə həmişəki kimi, "Dünya gözəlliklə dolu"dur. 10 cildlik "Seçilmiş əsərləri" isə onun poetik, füruzeyi mineral daşları kimi diqqət çəkib və layiqli dəyər qazanıb.

**Deyən, darısqaldı fikrimin yolu,**
**Odur ki, dilimdən fışqırıb çıxır.**
**Ahıl duyğuların əsarətindən**
**Deyərsən, kəlmə yox, muştuluq çıxır.**

Ədəbi həyata tükənməz yaradıcılıq enerjisi ilə qoşulan, gözəl hekayə və povestlərin də müəllifi olan Firuzə xanım bir filoloq kimi, könlünü elmi fəaliyyətdən də əsirgəməyib. "Yusif Vəzir Çəmənzəminlinin tarixi romanlarının dil və üslub xüsusiyyətləri" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi adını alıb. Müxtəlif illərdə "Bədii dilin estetik mənbələri" (dərs vəsaiti), "Y.V.Çəmənzəminlinin tarixi romanlarının ("Qızlar bulağı" və "Qan içində") dil və üslub xüsusiyyətləri" (monoqrafiya), "Azərbaycan dilinin linqvistik poetikası və mətnin təhlili" (proqram), "Azərbaycan dilinin linqvistik ekvivalentlər" (dərs vəsaiti) ilə müəllimlik, alimlik bacarığını da sərgiləyə bilib.

İnamla "Aşacağam zaman adlı sədləri" deyən Firuzə Məmmədli 1992-ci ildə Türkiyədə düzənlənən beynəlxalq şeir müsabiqəsinin "Əlişir Nəvai" mükafatını qazanıb. Daha sonralar Beynəlxalq "Rəsul Rza", "Qızıl kəlmə", "Nəsimi" mükafatlarına layiq görülüb. "Tərəqqi" medalı, "Əmək" ordeni də, xarici ölkələrdə keçirilən şeir şölənlərinin, müsabiqələrin xüsusi diplom və sertifikatları da onun ömür yoluna işıq saçan qəndillərə dönüb. Onun İstanbulda nəşr olunan "Söz pilləkəni" adlı şeirlər toplusu qardaş ölkədə maraqla qarşılanıb.

**Yaddaşımda nə ki vardı, cəm etdim,**
**Gündüzləri gecələrə şam etdim.**
**Vərəqləri qələmimlə şum etdim,**
**Sözüm bitib-tükənmədi, nə yaxşı!**

Azərbaycan qadın şairləri antologioyasında halal-hümmət yerini layiqincə tutan Firuzə Məmmədli Məhsəti Gəncəvi, Natəvan, Heyran xanım, Kəminə, Aşıq Pəri, Ağabəyim Ağa, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Hökumə Bülluridən qəbul etdiyi estafeti ürəklə daşıyıb irəli aparan qələm sahibidir.

Ədəbiyyatımızın ağbirçəyi, poeziyamızın Firuzəsi şeirlərinin birində deyir: "Vaxtın məndə əriyən saatına quruldum". Arzu edirik ki, bu saatın həyat dolu səsi hələ uzun illər sonra da eşidilsin.

***Əli NƏCƏFXANLI***
***XQ***